# Belarus Respublikasının lak və boya məhsulları bazarına dair araşdırma

2017-ci il ərzində lak və boya məhsulları (lbm) istehsalı natural ifadədə 7,1% artmışdır.
Belarusda bu məhsulların əsas istehlakçılarını metal emalı, ağac emalı, tikinti şirkətləri, habelə pərakəndə tikinti materialları şəbəkələri təşkil edir.
Satışın 42% -dən 52% -dək hissəsi B2B-seqmentinin payına düşür.
Rəsmi məlumatlara görə 2017-ci ildə istehsalın strukturunda 81% çox natural ifadədə su əsaslı boya təşkil edir.
İxracın strukturunda orqanik həlledici əsaslı boya üstünlük təşkil edir. Bu məhsulların əsas satış bazarları MDB ölkələri, o cümlədən Rusiya, Qazaxıstan, Ukrayna, Özbəkistan və Qırğızıstan olmuşdur.
Avropa Birliyi ölkələri arasında Belarus məhsullarının əksər hissəsi Baltikyanı ölkələrə ixrac olunur.

**Rəqabətlilik mühiti:**

Belarusda lak və boya materialları bazarı çoxsaylı istehsalçı tərəfindən təmsilı olunur. Bazarın əsas oyunçularına yerli istehsalçılar (ЧУП "МАВ", "Лакокраска" ASC) və eləcədə xarici şirkətlər ("Caparol", "Ceresit", "Condor") daxildir.

Su əsaslı boyaların idxalı sahəsində Rusiya 1-ci yeri tutur. Bu əsasən Rusiya istehsalı olan boyların aşağı qiymətli olması və Belarus bazarına maneəsiz girişi əsasında mümkün olmuşdur. Buna baxmayaraq Avropa ölkələrindən gətirilmiş boyalar da idxalda üstünlük təşkil edir. Qeyd etmək lazımdır ki, istehlak bazarında Rusiya və Belarus istehsalı olan boylara nisbətən digər ölkələrin tanınmış brendlərinin yüksək keyfiyyətli boyalarına üstünlük verilir.

**Perspektivlər:**

Bu bazarın əsas perspektivləri alıcıların yüksək keyfiyyətli məhsullarla təmin edilməsidir. Son inkişaf meylləri göstərir ki, istehlakçılar bu növ məhsulların tərkibinə, xüsusilə də ekoloji təmiz maddələrdən hazırlanmasına daha çox diqqət yetirirlər.

Metal emalı sahəsində yeni və kifayət qədər perspektivli istiqamətlərindən biridə toz boyalarıdır.

Pərakəndə seqmentində inkişaf perspektivlərinə gəldikdə, istehlakçılar getdikcə boyanın keyfiyyətinə və ekoloji cəhətdən rahatlığına diqqət yetirirlər. Buna görə də, gələcəkdə su və nitrosellüloza əsaslı boyalardan istifadənin azalması proqnozlaşdırılır.

Aparılmış tədqiqata aşağıdakı məlumatlar daxil edilmişdir:

- Seqmentlərinin icmalı: Su əsaslı boyalar, orqanik əridici əsasında boyalar, sellülozu, əridici və yapışqan əsaslı boyalar
- Boya istehsalı, idxalı və ixracı barədə məlumatlar
- İstehsalçılar, idxal və ixracatçılar barədə məlumatlar
- Bazarın mövcud vəziyyətinin analizi və perspektivlərinin təhlili
- Dövlət tənzimlənməsi xüsusiyyətləri